# Ölkəmizin artan nüfuzunun bariz nümunəsi

**Azərbaycanın xarici siyasətində qazandığı uğurlar ölkənin beynəlxalq arenada artan nüfuzunun ən bariz göstəricilərindən biridir. Hər yeni diplomatik nailiyyət, hər strateji qərar Azərbaycanın qlobal səhnədə mövqeyini daha da gücləndirir. Bu uğurların geniş spektri siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə özünü göstərir. Rəsmi Bakının həyata keçirdiyi xarici siyasət xətti, prinsipial mövqeyi və strateji qərarları ölkəmizi regionun ən mühüm güc mərkəzlərindən birinə çevirmişdir. Xüsusilə, BMT, Qoşulmama Hərəkatı, Türk Dövlətləri Təşkilatı kimi beynəlxalq platformalarda göstərdiyi liderlik nümunələri Azərbaycanın nə qədər çevik və iradəli bir aktor olduğunu sübut edir.**

Azərbaycanın sülh, regional əməkdaşlıq təşəbbüsləri və mühüm tranzit layihələrindəki rolu beynəlxalq aləmdə rəğbətlə qarşılanır. Cənubi Qafqazın strateji əhəmiyyəti Azərbaycan kimi bir ölkənin çevik və iradəli siyasəti ilə daha da önəm qazanır. Zəngəzur dəhlizi kimi təşəbbüslər regional inteqrasiyanın qapısını açır, yeni iqtisadi və ticarət marşrutlarının yaranmasına şərait yaradır. Ölkəmizin karbohidrogen resurslarının dünya bazarına çıxarılmasında mühüm tranzit mərkəzi kimi rolu danılmazdır. Azərbaycan, sözün əsl mənasında, yeni bir mərhələyə qədəm qoyur, balanslı, sülhpərvər və praqmatik yanaşması ilə gələcəyə doğru inamla irəliləyir.

Rəsmi Bakının qlobal miqyasda nüfuzunun artmasının və xarici siyasətdə əldə etdiyi növbəti böyük uğurun parlaq nümunəsi D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv seçilməsidir. Türkiyənin təşəbbüsü ilə 1996-cı ilin oktyabrında İstanbulda Banqladeş, İndoneziya, İran, Malayziya, Misir, Nigeriya və Pakistanın iştirakı ilə əsası qoyulan D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı 1997-ci il iyunun 15-də keçirilən sammitdə rəsmən təsis olunmuşdu. Təxminən 28 il ərzində sabit formatda fəaliyyət göstərən bu təşkilat ilk dəfə olaraq Azərbaycanın üzvlüyü ilə genişləndi. Bu mühüm hadisə Azərbaycanın beynəlxalq aləmdə formalaşdırdığı yeni geosiyasi reallıqların təzahürü və rəsmi Bakının güclü bir aktor kimi qəbul edilməsinin bariz nümunəsidir.



Azərbaycanın D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olması yalnız bu qurumun deyil, həm də İslam Əməkdaşlıq Təşkilatının (İƏT) siyasi və iqtisadi gücünü artıracaq tarixi bir addımdır. Bu qərar Azərbaycanın iqtisadi və logistika potensialını daha geniş miqyasda nümayiş etdirmək üçün yeni perspektivlər açır. Şərq və Qərb arasında körpü rolunu oynayan Azərbaycan tranzit ölkə kimi beynəlxalq ticarət marşrutlarının mühüm mərkəzinə çevrilir. D-8-ə üzvlük isə bu strateji mövqeyi daha da möhkəmləndirərək rəsmi Bakının qlobal əməkdaşlıqdakı rolunu daha parlaq şəkildə ön plana çıxarır. Ölkəmizin bu təşkilatlara üzvlüyü ilə beynəlxalq səviyyədəki nüfuzu və çəkisi daha da artacaq. Azərbaycanın güclü liderlik bacarığı və strateji baxışları sayəsində D-8 və İƏT yeni imkanlar qazanacaq. Dünyanın lider dövlətləri də Azərbaycanın bu təşkilatlarda oynayacağı mühüm rolu aydın başa düşərək bu addımı müsbət qiymətləndirir və dəstəkləyirlər.

Başqa bir mühüm məqam isə Azərbaycanın D-8-ə üzvlüyü ilə islamofobiyaya qarşı mübarizənin yeni mərhələyə qədəm qoymasıdır. Rəsmi Bakı indiyədək bu istiqamətdə fəal təşəbbüslərlə çıxış etmiş, qlobal arenada islamofobiyanın qarşısını almaq üçün ardıcıl və prinsipial mövqe sərgiləmişdir. D-8-ə üzvlük isə bu mübarizəni daha da gücləndirərək, Azərbaycanın beynəlxalq platformalarda daha təsirli addımlar atmasına geniş imkan yaradacaq. Bu tarixi addım yalnız ölkəmiz üçün deyil, D-8-in bütün üzvləri və ümumilikdə müsəlman dünyası üçün əhəmiyyətli dividendlər gətirəcək.

Son dövrlər neokolonializmə qarşı çıxış edən ölkələr arasında respublikamız öz prinsipial mövqeyi ilə seçilir. D-8-in əsas prinsiplərindən biri olan müstəmləkəçiliyin deyil, ədalətli düzənin qurulması məhz Azərbaycanın xarici siyasət kursuna tam uyğun gəlir. Ölkəmiz bu təşkilata üzv olmazdan əvvəl də bu prinsipə sadiqliyini əməli fəaliyyəti ilə sübut edib. Azərbaycanın D-8-ə üzvlüyü həm də onu göstərir ki, ölkəmiz sülh, ədalət, əmin-amanlıq, firavanlıq, iqtisadi-ticari əlaqələri və təhlükəsizliyə əsaslanan yeni dünyanın formalaşmasında fəal iştirak edəcək. Bu addım Azərbaycanın beynəlxalq aləmdəki mövqeyini daha da möhkəmləndirərək qlobal əməkdaşlığa və demokratiyanın inkişafına mühüm töhfələr verəcəyini nümayiş etdirir.

**Röya RÜSTƏMLİ,**
**"Respublika".**

Respublika .- 2024.- 26 dekabr (№ 286). - S.4.